

Nərmin Kamal

# Qarovulçunun oğlu

(Hekayə)

1.

***Abşeronun şimal çimərliklərində xilaskar işləyən kasıb bir oğlana atasından yaxşı pul qaldı. İl də tamam oldu, amma o, bu ata payının üstündən bir manat da götürməyə qıymırdı.***

***Elə bir vaxt idi ki, külək Xəzərin üstündə tüğyan edir, ağ köpüklü dalğalar bir-birinin üstünə qalaqlanırdı. Böyük təpələr kimi bu dalğaların yamacları, yalları aydın seçilirdi. Yayda dənizin qadağan olunmuş yerlərində oyun çıxaran nadinc yeniyetmələr indi öz isti guşələrinə çəkilib şəhərə yağan soyuq, toza bənzər yağışdan gizlənmişdilər. Həriflər payızdan ilhamlanaraq sevgi-məhəbbət haqda mahnılara qulaq asır, ingilislərin dilini öyrənir, gələcəkdə bu həyatda nə isə bir şey etməkçün əlləşirdilər. Çimərliklər boşalmışdı, xilas etməyə bir top da qalmamışdı. Amma o, narıncı qayıqda dalğıc eynəyinə su sıçraya-sıçraya dənizi gəzirdi. Birdən köynəyini, şalvarını çıxarmadan qayıqdan suya tullanırdı. Çıxanda üst-başından su şoruldayırdı. 'Kimdirsə, darıxır' – villalardan binokla baxanlar fikirləşirdilər. Bir böyüyü də yox idi desin, 'Fərid, darıxma, pulu olan adam darıxmaz', 'atanın yeganə balasısan, sən xərcləməyəndə bəs kim xərcləyəcək.'***

Ancaq Nata onu dilə tuta bildi. Qadın qollarını onun boynuna doladı: "Gəl çıxaq gedək buralardan, təzə həyata başlayaq. Heç kəsə deməyək yerimizi," – pıçıltıyla bir şəhər adı da dedi. "Orda da dəniz var, Fedka, sənə iş tapılar." Fəridin çox fikirləşdiyini görəndə qadın səsini qaldırdı: "Nu?"

Elə bir-iki gün keçdi, Fərid pul dəstəsinin belindəki rezini açdı, onu cibinə qoydu, pul elə bir şeydir ki, həmişə lazım olur, Natanı və onun uşağını da götürüb yola düşdü. Huşsuzluqdan, yaş pal-paltarını da açıb havaya sərmədi, həyətdə ağacın dibində bükülü qaldı, o gedəndən sonra nəm ayaqqabılarının içində yumru papaqlı bir qum göbələyi boy atdı.

Gedənləri yola salmağa Natanın çəlimsiz anası gəldi. Qarının ayaqlarında şəhər zibilliklərindən tapdığı Belarus traktorlarına bənzər yeniyetmə qız ayaqqabıları, əynində hansısa uşağın futbol oynayanda ağac budağından asıb unutduğu məktəbli gödəkcəsi, əlində təsadüfi görüşlərçün yarım torba quru it-pişik yemi vardı. Həyəcandan bir dəqiqə dayanmır, "Fərid, qulağıvı gətir" deyirdi, Fərid ona tərəf əyilirdi. O, otuz il bundan qabaqkı hadisələrdən, ac və möhtac illərdən, Natanı böyüdənə qədər necə odlar, alovlar tapdamasından danışırdı, ancaq dişləri yox idi, çox söz başa düşülmürdü. Nata onu Fəriddən ayırmaqçün qucaqlayır, "Yaxşı, mama", "Bəsdir, mama" deyirdi. Qarı yenə Fəridi özünə tərəf əyir, Natanı tərifləyir, məktəbdə yaxşı oxuduğunu, çoxlu tərifnamə aldığını, amma sonra kiminsə onun başını aldadıb atdığını, əslində yaxşı qız olduğunu deyirdi. Cavanlar qırmızı zolağın o üzünə keçib axırıncı dəfə geriyə baxanda qarı bir dəri, bir sümük olan barmaqlarını havada bir-birinə sürtüb "İtirməyin" – dedi, həmin barmaqlarıyla da quru meyvə tək büzüşmüş yanaqlarını sildi. Onun nəyi nəzərdə tutduğunu başa düşdülər.

Uçuş yaxşı keçdi. Uşağı yuvarlaq pəncərənin yanında oturdub başını pambıq buludlarla aldatdılar, özləri bütün yolu dedilər, güldülər. Necə gülməsinlər, gülüş gənc ürəklərinin içindən gəlir, dörd dövrələri də gülməyə əsas verirdi. Konsertə yollanan hansısa musiqiçi dəstəsi violonçelləri üçün təyyarədə ayrıca yerlər almışdı, bellərinə kəmər taxıb hərəsini bir adamın yerində dik oturtmuşdular. Qara köynəklərin altından qabaran gövdələri insan bədəninə, yumru çiyinlərə, uzunsov başlara oxşayırdı. Bu yol yoldaşlarına hər dönüb baxanda mehriban cütlük iki durna kimi qaqqıldaşırdı. Fərid xilas etdiyi adamlar haqda cürbəcür əhvalatlar da danışır, qadın "Nu tı prikol" deyib gülürdü.

Torpağa ayağı dəyəndə ata payının üstündən bir neçə əskinas verdi, ona beş günlüyünə təvazökar bir maşının açarını etibar etdilər. Dedilər ki, əfəndim, ruhsat arabada, çıxışda göstərib tiri qaldıra bilər, yolu açıq olsun. "Ağ canavar" – Nata maşına ad qoydu. Fərid sükan arxasına keçdi, kəmərlərini bağladılar və ağ canavar hava limanının ərazisindən çıxıb saatda yüz kilometr sürətlə şəhərə üz tutdu. Əslində yavaş da getmək olardı, hara tələsirdilər ki?!

Səhər təzə açılırdı. Yollarda üzlərindən zəhrimar yağan boz pencəkli kişilər, qadınlar işə tələsirdilər. Təkcə onlar il uzunu tətilə gedən varlı-hallı ailələr tək noyabr ayında macəra axtarır, bu beş günlük həyatdan həzz almaq istəyirdilər. Bəxtlərindən göy üzü açıq, hava günəşli, payızda görünməmiş istiydi. Hərə öz pəncərəsindən baxıb susurdu, deyəsən, ilk səhifələri maraqsız olan kitablar kimi bu sənaye mənzərələrinin tez ötüb keçməsini gözləyirdilər. "Darıxma," - qadın əllərini başında daraqlayıb təzə həyat haqda qırıq-qırıq danışmağa başladı, - "İndi şəhərlə tanış olarıq, mütləq İzmir bombası yeyərik, görəsən necə şeydi, günorta otelə çatarıq. Buranı tanıyandan sonra qəşəng bir yerdə aylıq ev tutarıq. Həftənin axırı adı nəydi oranın, Sifarihisar qəsəbəsinə, sonra Çeşmə yarımadasına, Alaçatı sahillərinə gəzməyə gedərik. Nə qədər ki, havalar yaxşıdı, gəzmək lazımdı. Qabaqdan qış gəlir."

Xəritədə göy damara oxşayan yol uzanırdı.



***- Mən burger istəyirəm! - arxa oturacaqdan uşağın cır səsi gəldi.***

***- Olmaz, Məryəm, Maşa, Maşinka, mamanın balası, səhər-səhər burger yemək olmaz. İndi bir yerdə saxlayıb zavtrak edərik. Ora bax, gör küçələrdə nə qədər pişiklər var, gombul-gombul.***

***- Soruşmadım! - Maşa qaşını çatdı. - Mən burger istəyirəm!***

***Ağ canavar düz gedir, burulur, küçədən küçəyə adlayır, dayanmağa bir yer axtarır, naviqatorun qadın səsi soyuqqanlılıqla deyirdi:***

***- Kıbrıs şehitleri caddesi, Cevher Dudayev Sokak, 1453 Sokak, 1458 Sokak...***

***- Sokak, sokak, sokak! – Maşa üzünü turşutdu.***

***- Sokak, yəni küçə, Maşa.***

***- Soruşmadım!***

***- Sən ananın gözəl qızısan, sən ananın ağıllı balasısan.***

***- Mən burgerlə fanta istəyirəm. Bir də deməyəcəm!***

***- Yüzbaşı Şerafettin bey Sokak, - deyəsən, təkcə naviqator Maşadan qorxmurdu.***

Fərid güzgüdən qızcığaza baxdı. Onun başında qarğıdalı saçağına bənzər bir çəngə tük vardı. Üzündə elə bir ifadə gəzirdi ki, əbəs yerə Nata Maşanın ram olacağına ümid edirdi. Görkəmsiz binaların arasıyla bezənəcən dövrə vurandan sonra ağ canavar bir küncdə dayanmağa yer tapdı. Fərid getdi, cibindəki ata mirasını bir dövizə verib yerli pula dəyişdi. Aldığı daha çox pul etdi, iki cibini doldurdu. Özünə bir türk birası aldı, içə-içə küçələrdə o üzə-bu üzə dolandı ki, bəlkə burger tapa.

Türkiyə ona çox yad göründü. Dükanlara, maşınlara, ağaclara, adamlara, binalara baxdı. Bir pəncərənin pərdəsi aralı qalmışdı, sanki kimsə xəlvətcə onu güdürdü. Qara geyimli, çiyni silahlı jandarmaları gördü, tramvayların taqqıltısını, məhəllə bazarlarına yük boşaldanların gumbultusunu eşitdi, bəzi şeylərisə gördüyünü, eşitdiyini heç bilmədi, şəhərin sakit küyü, gözünə düşən şüalar, şam alovunun titrəyişinə oxşayan meh, qızardılmış qoyun əti iyi, yanından keçən qadınların arxasınca uzanan paravoz tüstüsünə oxşar tütün dumanı, ayağının altındakı sərt daşlar, yerin təkindəki uzaq zəlzələlər və başqa hesaba gəlməyən qüvvələr dolaşıq şəkildə birləşib onu burulğana saldı. Canını bu uzun yolları piyada gəlmiş kimi yorğunluq bürüdü. Amerikan neməti də bu vaxt, onu unutduğu an qarşısına çıxdı, uşağa iki burgerlə fanta aldı. Elə burada "Çələbi" adlı xırda bir şirniyyat dükanının qarşısında uzun növbə görüb İzmir bombası almağa dayandı. Bayaqdan pəncəsini keçirməkçün səbrsizliklə gözləyən o axmaq günah hissi də qurbanını elə burada - növbədə yaxaladı. O və onun kimi hisslər həmişə iki dolab arasına sivişmiş hörümçək kimi belə ara vaxtlarda tor qurur, iki daşın arasında, evdə bir nəfərdən başqa hamının yatdığı günorta saatlarında, qatarlar qaranlıq tunellərin ortasında susub dayananda, zavodlarda, fabrklərdə, banklarda, poçt kontorlarında makinalar qəfil, gözlənilmədən çökəndən yenə işə düşənə qədər keçən uzun beş dəqiqələrdə:

***Fərsizliyə bax! Atamın qara günçün yığdığı, əl izləri olan pulları vermişəm, əvəzinə yad pul almışam. İndi də onu gör necə xərcləyirəm. Yazıq gecələr bütün bu camaat kimi çarpayısında rahat yatmırdı, qoca vaxtında orda-burda kimlərinsə dükanlarına qarovulçuluq edirdi. Səhərə yaxın hamı şirin yuxuda olanda soyuq dükanlarda quru stulları, taburetləri yan-yana düzüb üstündə mürgüləyirdi. Birdən ürəyinə şeytan girər, dükandakı əşyaları yığıb aparar deyə, qapını üzünə kilidləyib gedirdilər. Satqın yuvası kameradan güdüb yatdığını görsələr, onu dərsə gecikən uşaq kimi danlayırdılar. Necə böyük rüsvayçılıq! Özünə yağın, pendirin ən ucuzundan alırdı, 'Pul korlamıram' – deyirdi, 'Səncün saxlayıram. Mən dünyadan köçəndə gəlib onu götürərsən.' Bu da mən. Hansısa qadınla, kiminsə atıb getdiyi uşaqla o pulu havaya sovurmağa gəlmişəm.***

Əlində iki torbayla maşına tərəf getdiyi vaxt günah hissi onu tək görüb fırtına qopartdı, yeni həyata başlamaq istəyən bu cavan oğlanın qol-qanadını sındırıb yanına saldı. Fərid öz fikirlərindən zəhərləndi, onları gətirən təyyarənin mühərriki hələ soyumamış Xəzər sahillərindəki sakit həyatına geri dönmək, pulu qaytarıb atasının köhnə pencəyinin döş cibinə qoymaq, onu əziz bir xatirə tək qoruyub saxlamaq istədi. Yaddaşı da bu vaxt dinc durmur, ona köhnə çarpayısında oturub pul sayan atasını göstərirdi. Hər səhər işdən qayıdanda pəncərəsindəki dəmir barmaqlığa güvənməyib pulu yoxlayırdı. Keçmişdə nə vaxtsa olub keçmiş qara günlərin yenə gələcəyini səngərdə gözləyən əsgər sayıqlığıyla gözləyirdi, pulu evində Kalaşnikov avtomatı kimi saxlayırdı. Özü dünyada olmayanda oğlu götürəcəkdi bu silahı, əliyalın qalmayacaqdı.

Fərid qəmli gözlərini ətrafda dolandırdı. Nə hiss etməsinə, hansı qəribə hissə qapılmasına baxmadan vaxt gedirdi, özgə dildə danışan adamlar keçir, hansısa oteldən çıxanların çamadan təkərcikləri dığırlanır, küçə satıcısı qəpik-quruşa qotazlı türk paşası papağı satmağa çalışır, bu küçədə yeriyən hər bir kəs dünən fikirləşdiyini bu gün etməkçün tələsirdi. Onun tənhalığını hiss edibmiş kimi haradasa yaxından azan səsi ucaldı, şəhərin hər daşında əks-səda verdi. Başının üstündə, iki binanın arasındakı dar dəhlizdə Türk cümhuriyyətinin yüzüncü ili şərəfinə al qırmızı bayraqlar, şən plakatlar asılmışdı. O plakatlar deyirdi: "İkinci yüzyıla hazırız!"

2.

***'Nə gec gəldin? Nəsə olub?' Fərid 'Heç nə' desə də, açıq görünürdü ki, yalan deyir. O, həminki adam deyildi. 'Oy!' – qadın heyrətlə Fəridə baxdı. Onun gicgahındakı göy damar titrəyirdi. 'Bəlkə həkim çağıraq?'***

***Artıq gecdir. Gülünc hisslər onu cənginə alıb. İndi Fərid özünü elə aparır, guya bura öz istəyilə gəlməyib, onu aldadıb gətiriblər və aldadıldığını yalnız indi başa düşüb.***

(ardı gələn sayımızda)